*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 246-256*

https://doi.org/10.62837/2025.3.246

**BAYRAMOVA ARZU ASTAN QIZI**
**Sumqayıt Dövlət Universiteti**
**bayramova.arzu2@gmail.com**

# AZƏRBAYCAN DİLİNDƏ SÖZ BİRLƏŞMƏLƏRİ, SİNTAKTİK ƏLAQƏLƏR VƏ ONLARIN TƏDQİQİ

**Açar sözlər: substantivləşmə,idarə, yanaşma, karlaşma, qrammatika**

## 1. Sintaksis və söz birləşmələri haqqında

Azərbaycan dilçiliyində dilimizdəki sözlərin sərbəst və sabit mövqedə olmasına görə sabit birləşmələr leksikologiyanın tərkibində sərbəst birləşmələr isə sintaksisin tərkibində öyrənilir

"Sintaksis" mənşəyinə görə yunan sözü olub, mənası "birləşmə", "qurmaq", "tərtibat" deməkdir. Qrammatikanın bir bölməsi kimi sintaksisdə sözlərin, söz birləşməsi və cümlələr şəklində birləşməsi qaydalarından bəhs edilir. Sintaksis qrammatikanın bir şöbəsi olmaqla, sintaktik vahidlər sistemini, sintaktik vahidlərin qurulmasını, bağlanma vasitə və üsüllarını, mətnin quruluşunu və s. öyrədir [5.233].

Hər hansı bir dilin linqvistik sistemində fonem, söz, söz birləşmələri, cümlə özünə məxsus qanunauyğunluqlarla sıralanaraq dilin ümumi mənzərəsini əks etdirir.

Söz birləşmələri sözlə cümlənin sərhədində dayanaraq sözə nisbətən daha çox leksik konkretliyə malikdir. Məsələn.: qaşıq- çay qaşığı, oxumaq- mahnı oxumaq və s. Söz birləşmələri 2, 3, 4 və daha artıq sözdən ibarət ola bilər. Məsələn.: dünən evə gələndə, ali təhsil almaq üçün oxumaq, Qarabğın ermənilər tərəfindən dağıdılmış kəndləri və s. Söz birləşmələri qrammatik kateqoriya olaraq mürəkkəb sözdən fərlənir. Söz birləşmələrinin tərkibindəki sözlər ayrı (ağ daş, doşab qabı, çayda çimən və s) , mürəkkəb sözlər isə bitişik (itburnu, şəhərlərarası, ağlabatan vəs), yazılır. Mürəkkəb sğzlər əsasən bir vurğu ilə deyilir. Söz birləşmələrində əks olunan sözlərin isə hər birinin müstəqil vurğusu olur [1- 503].

Bəzi dilçilər 60- cı illərə qədər söz birləşmələrini tabeli mürəkkəb cümlə kimi təqdim etsələrdə, söz birləşmələri cümlə üzvü kimi təqdim edən müəlliflər çoxluq təşkil edir [5.161].

## 2. Söz birləşmələri və onların növləri

Söz birləşməsi iki və daha artiq müstəqil sözün məna və qrammatik cəhətdən birləşməsindən əmələ gəlir. Məsələn: yaşıl yamac, uca dağ, evin qapısı, qapını açmaq, məktəbdə oxuyan, səhər evdən gedərkən və s. Söz birləşməsi müstəqil mənalı gözlərdən yaranır. Ona görə də müstəqil sözlə köməkçi sözün birləşməsi söz birləşməsi yaratmır (məsələn: evə tərəf, sənin kimi və s.), söz birləşmələrində əsas və asılı tərəf olmur. Asılı tərəf əsas tərəfə sintaktik əlaqə üsullarından (uzlaşma,

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 246-256*

idarə, yanaşma) əsas tərəfə tabe olur. Əsas tərəfin nitq hissələri ilə ifadə olunmasına görə söz birləşməsinin iki növü var: ismi və feili birləşmələr.

**a) İsmi birləşmələr**

İsmi birləşmələr əsas tərəfi adlarla (isim, sifət, say, əvəzlik, zərf) ifadə olunan birləşmələrə deyilir. Məsələn: yaşıl yarpaq, qızıl üzük, əldən iti, evin yuxarısı və s. Asılı tərəfin əsas tərəfi izah etməsinə görə qramamtika kitablarında bu birləşmələrə təyini söz birləşməsi də deyilir [4. 210]. Bu birləşmələr forma və məna xüsusiyyətlərinə görə üç növə bölünür:

1. Birinci növ təyini söz birləşmələri;
2. İkinci növ təyini söz birləşmələri;
3. Üçüncü növ təyini söz birləşmələri.

Bundan əlavə, dilimizdə durna gözlü, dosta hörmət, aydan arı, əlində kitab, hamıdan cəld tipli ismi birləşmələr də var. Bunlar cümlənin bir mürəkkəb üzvü olur. Bu birləşmələr qeyri-təyini söz birləşmələri və yaxud təyini söz birləşmələrinə daxil olmayan ismi birləşmələr adlanır.

**a) Birinci növ təyini söz birləşmələri**

Birinci növ təyini söz birləşmələrini prof. Q.Kazımov yanaşma əlaqəli ismi birləşmə (rəngli şüşə, beş kitab, qızıl üzük və s.), ikinci növ təyini söz birləşmələrini yanaşma-uzlaşma əlaqəli birləşmə (kafedra müdiri, məktəb direktoru və s.), üçüncü növ təyini söz birləşmələrini isə uzlaşma – idarə əlaqəli birləşmə adlandırmağı münasib hesab edir. (ağacın budağı, inəyin südü, mənim kitabım).

Fikirimizcə, eyni modelli birləşmələri orta məktəb və ali məktəb qrammatikalarında fərqli terminlərlə ifadə etmək dolaşıqlıq yaradır.

Hal və mənsubiyyət şəkilçilərinin iştirakı olmadan yaranan birləşmələrə birinci növ təyini söz birləşməsi deyilir (yanaşma əlaqəli birləşmə). Bu tipli biləşmələrdə əsas tərəf isimlə ifadə olunur, asılı tərəf isə isim, sifət, say, əvəzlik, zərf, feili sifətlə ifadə oluna bilir. Məs: daş hasar, hündür hasar, beş hasar, bu hasar, aşağı hasar, sökülən hasar və s. Bu birləşmələrin birinci tərəfi adətən təyin, ikinci tərəfi isə mübtəda, xəbər, tamamlıq, zərflik olur.

**b) İkinci növ təyini söz birləşmələri**

İkinci növ təyini söz birləşməsi (uzlaşma-yanaşma əlaqəli) birinci tərəfi yiyəlik hal şəkilçisiz, ikinci tərəfi mənsubiyyət şəkilçili (-ı, -i, -u, -ü) birləşmələrə deyilir (dağ havası, dərs kitabı, şəhər bağı, yazı taxtası).

İkinci növ təyini söz birləşməsinin (uzlaşma-yanaşma əlaqəli birləşmələrin) bir sıra məna və qrammatik xüsusiyyətləri var.

1) Bu birləşmələr ümumilik, mücərrədlik ifadə edir..

2) Bu birləşmələrin mürəkkəb isimlərə doğru inkişaf meyli var: kəklikotu, ayaqqabı, dəvədabanı və s.

3) Bu birləşmələrin tərəflərinin ifadə vasitələri məhduddur. Əsasən, isimlə ifadə olunur. İstisnalar da var. Məsələn, gözəllər gözəli və s.

4) Cümlələrin mürəkkəb üzvü olur – bütün cümlə üzvü vəzifəsində işlənə bilir.

5) Bu birləşmələrin tərəfləri eyni zamanda cəmlənə bilmir. Bir tərəf cəmləndikdə digər tərəf cəmlənməz. Burada da istisnalar var (həmkarlar ittifaqları, atalar sözləri və s.)

6) Bu birləşmələrin tərəfləri arasına heç bir söz daxil ola bilmir. Ona görə də yuxarıda dediyimiz kimi, prof. Q.Kazımov bu xüsusiyyətinə görə həmin birləşmələri yanaşma-uzalşma əlaqəsi kimi dəyərləndirir.

yanaşma
məktəb ⇄ direktoru
uzlaşma

Qoy qırılsın artıq cəllad bıçağı,
Dünya olsun azad ana qucağı (C.C.).

**c) Üçüncü növ təyini söz birləşmələri**

Bu birləşmələrin birinci tərəfi yiyəlik hal, ikinci tərəfi mənsubiyyət şəkilçisinin iştirakı ilə yaranır. Məsələn: ağacın yarpağı, Qarabağın qəhrəmanları, xalqımızın sevinci, bizim ölkəmiz, oxumağın faydası və s.

III növ təyini söz birləşmələrinin bir sıra məna və qrammatik xüsusiyyətləri var:

1) Bu birləşmələrin tərəflərinin ifadə vasitələri genişdir (isim, sifət, say, əvəzlik, məsdər, zərf və s. ilə ifadə olunur.). Məs.: vətənin oğulları, yaxşıların yaxşısı, kəndin yuxarısı, Arifin oxumağı və s.

2) Bu birləşmələrin tərəfləri birlikdə cümlənin mürəkkəb üzvləri olur. Məs.: Maşının sürəti getdikcə artırdı. Oxuyan Əhmədin qardaşıdır. Ancaq bəzi hallarda bu birləşmənin birinci tərəfi cümlənin təyini vəzifəsində çıxış edir. Bizim (sizin) dağlar ucadır cümləsində bizim sözü cümlənin təyini rolunda çıxış edir.

3) Bu birləşmələrin tərəfləri eyni zamanda cəmlənir. Məs: məktəblərin şagirdləri, şagirdlərin əlaçıları və s.

4) III növ təyini söz birləşmələrinin tərəfləri arasına söz artırmaq olur. Məs.: məktəbin həyati – məktəbin geniş həyati və s.

5) Bu birləşmələrin tərəfləri arasında uzlaşma-idarə əlaqəsi mövcuddur. Məs.: Qızın gözəlliyi; mənim dərdim; sənin həyatın və s.

idarə idarə
Sənin ⇄ həyatın; Mənim ⇄ dərdim
uzlaşma uzlaşma

6) Bu tipli birləşmələrin birinci tərəfi şəxs əvəzlikləri ilə ifadə olunur. Ancaq II növ təyini söz birləşmələrində bu xüsusiyyət yoxdur. Məs.: insan ömrü, həftə aşırı, qələm dostlarımız.

Azərbaycan dilində ismi birləşmələrin bir növü də var ki, bu da təyini söz birləşmələrinə daxil olmayan ismi birləşmələrdir. Belə birləşmələrin birinci tərəfi mənsubiyyət şəkilçili sözlərlə, ikinci tərəf –lı4 şəkilçili sifətlərlə ifadə olunur. Bu

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 246-256*

forma geniş yayılmışdır. Məs: gözləri yaşlı, əlləri qandallı, camalı solğun, beli bükülü və s. Bununla yanşı, birinci tərəfi yönlük, yerlik və çıxışlıq halda olan birləşmələr də bu sıraya daxildir. Məsələn, insana hörmət, dosta məhəbbət, belində kəmər, əlində qələm, əldən iti, aydan arı, sudan duru. Bu tip birləşmələr şeir dilində daha çox işlənir.

**b) Feili birləşmələr**

Əsas tərəfi – feillərdən ibarət olan birləşmələrə feili birləşmələr deyilir. Feili birləşmə dedikdə, əsas tərəfi feili sifət, feili bağlama və məsdərlərdən ibarət olan birləşmələr nəzərdə tutulur. Məsələn: məsələni həll etmək, məktubu oxuyan, məktəbdən gələrkən və s. Zahirən feili birləşməyə oxşayan yaxşı olmaq, danışa bilmək, yaza bilmək, şad olmaq, namaz qılmaq və s. kimi formaları feili birləşmə adlandırmaq olmaz. Çünki bu formalı feillər tam müstəqil leksik mənaya malik olmayan köməkçi feillərdən ibarətdir. Bu feillər tərkibi feillərdir.

Gördüyümüz kimi, feili birləşmə müstəqil sözlərin feili sifət, feili bağlama və məsdərə tabe olması ilə yaranmışdır. Feili birləşmələr cümlədə tərkib əmələ gətirir. Bu tərkiblər əsas tərəflərin adları ilə adlanır və bunların üç növü var:

**a) Məsdər tərkibləri;**

**b) Feili sifət tərkibləri;**

**c) Feili bağlama tərkibləri.**

Feili birləşmələrdə hərəkətlə onun aid olduğu müxtəlif anlayışlar arasında əlaqələr əks olunur. Bu əlaqələr aşağıdakı şəkildə özünü göstərir.

1. Hərəkətlə onun subyekti arasında: Tural oxuyanda, biz danışdıqca, tələbə öyrənərkən və s.
2. Hərəkətlə lonun obyekti arasında: kitabı almaq, məktubu oxumaq və s.
3. Hərəkətlə onun zamanı arasında: səhər oyanmaq, axşam yatmaq, gündüz işləmək və s.
4. Hərəkətlə onun məkanı arasında: şəhərə gəlmək, kənddən qayıdarkən, evdə oxumaq, irəli getmək, kənara çəkilmək.
5. Hərəkətlə onun tərzi arasında: tez-tez yerimək, asta-asta getmək, yaxşı oxumaq, birdən qaçmaq və s.
6. Hərəkətlə onun kəmiyyəti arasında: az işləmək, çox yemək və s.
7. Hərəkətlə onun səbəbi arasında: sevincdən ağlamaq, həyəcandan titrəmək və s.
8. Hərəkətlə onun məqsədi arasında: oxumağa getmək, yemək üçün yaşamaq və s.

Söz birləşmələri quruluşuna görədə 2 cür olur:

a) Sadə söz birləşmələri (məktəbin bəzəyi, aylı gecə, məktub yazmaq və s.)

b) Mürəkkəb söz birləşmələri (məktəbin geniş həyəti, kəndə məktub yazmaq).

Son dövrün qrammatika dərsliklərində mürəkkəb söz birləşmələri "tərkib" kimi qed edilir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 246-256*

## Məsdər, feili sifət və feili bağlama tərkibləri

Feili birləşmənin ikinci - əsas tərəfi feilin təsriflənməyən formaları ilə ifadə olunur. Buna görə də feili birləşmələr üç növə bölünür: məsdər, feili sifət və feili bağlama tərkibləri.

**a) Məsdər tərkibləri.**

Əsas tərəfi məsdərlərdən ibarət olar birləşmələrə məsdər tərkibləri deyilir. "Tərkib" və "birləşmə" əslində, sinonim terminlərdir. Ancaq tərkiblərdə sözlərin miqdarı, adətən, çox olur (məktəbə getmək - birləşmə, həmişə məktəbə getmək - tərkib hesab olunur).

Məsdər tərkibləri cümlənin müxtəlif üzvü vəzifəsində çıxış edə bilər (mübtəda, tamamlıq, xəbər və zərflik vəzifəsində çıxış edir). Çox irəli getmək təhlükəli idi (İ.S.); Bizim məqsədimiz həmişə yaxşı oxumaqdır (ismi xəbər); Ənvər gecələr göydəki parlaq ulduzlara baxmaqdan doymur. (tamamlıq) [8. 231-232]. Məsdər tərkibləridə idarə etmək üçün xüsusiyyətinə malikdir. Məs: universitetə gəlmək, işdən getmək, sükanda olmaq və s. Məsdər və məsdər tərkibləri felin bacarıq tərzi ilə də işlənə bilir: danışa bilmək, susa bilmək və s.

**b) Feili sifət tərkibləri**. Əsas tərəfi feili sifətdən ibarət olan tərkiblərə feili sifət tərkibləri deyilir. Feili sifət tərkibləri cümlədə əksərən təyin vəzifəsində çıxış edir. Məsələn: Bir layı açılmış pəncərənin ağzında üç adam oturmuşdu (S.Ə.) Feili sifət tərkibləri isimləşdikdə mübtəda, tamamlıq və xəbər vəzifəsində də çıxış edə bilər. Məsələn: Əhəd at ayaqlarından qopan şaqqıltını eşitmirdi (İ.M.) Həmişə yaxşı oxuyanları müəllim təriflədi. Tez ol, soyuqdan titrəşənləri öz nəfəsinlə isit (İ.Ş.) Feli sifət tərkibləri də, feil kimi təsdiq və inkarda olur.Məs: yazılmış məktub, yazılmamış məktub və s. Feli sifətlər əşyanın hərəkətlə bağlı əlamətini zamanla da ifadə edə bilir:

a) keçmiş zamanda: bu gün qurulmuş çadır, dünən əkilmiş tarla və s.

b) indiki zamanda: göydə uçan quş, yerə enən təyyarə və s.

c) gələcək zamda: sabah görüləcək iş, qaçqınlara tikiləsi ev və s.

**c) Feili bağlama tərkibləri.** Əsas tərəfi feili bağlamalardan ibarət olan tərkiblərə feili bağlama tərkibləri deyilir. Məsələn: Cahandar atı dirəyə bağlayıb, bir qədər duruxdu (İ.Ş.). Bu cümlədə atı dirəyə bağlayıb feili bağlama tərkibidir. Bağlayıb əsas tərəf, atı, dirəyə sözləri isə asılı tərəfdir. Feli bağlama tərkibləri təsirli və təsirsiz, təsdiq və inkarda olur. Feli bağlama, həmdə feli bağlama tərkibləri əsas feilə aid olub hərəkətin zamanını ( Mən işə gələndə) və hərəkətin təsvirini ( Uşaq qaçaraq tullandı) və s. Bəzi müstəsnaları nəzərə almasaq, feli bağlama tərkibləri cümlədə xəbər vəzifəsində işlənə bilmir[8. 231-233].

## 3. Sintaktik əlaqələrin mahiyyəti

Söz birləşmələrini və cümlələri əmələ gətirən sözlər arasında həm məna, həm də qrammatik əlaqələr olur. Sözlər arasındakı məna əlaqələrinin əsasını təbiətdə olan obyektiv əlaqələr təşkil edir. Sözlər arasındakı məna əlaqələri müxtəlif və rəngarəng

olur. Maraqlı kitab birləşməsində əşya ilə onun əlaməti, beş kitab birləşməsində əşya ilə onun kəmiyyəti, kitab almaq birləşməsində hərəkətlə onun obyekti, kəndə getmək birləşməsində hərəkətlə onun istiqaməti arasındakı münasibəti ifadə edir.

Sözlər arasında məna əlaqələri müxtəlif şəkildə olur:

1) Predikativ əlaqəsi – mən gedirəm, o gəlir və s.
2) Obyektiv əlaqə – məktub yazmaq, paltar tikmək və s.
3) Atributiv əlaqə – dəmir qapı, daş hasar, taxta qapı və s.
4) Relyativ əlaqə – tez-tez getmək, asta danışmaq və s.

Sintaktik əlaqələr iki formada təzahür edir: tabesizlik və tabelilik.

**1. Tabesizlik əlaqəsi**

Tabesizlik əlaqəsi məna və qrammatik cəhətdən bir-birindən asılı olmayan, bir-biri ilə eyni münasibətdə olan sözlər və cümlələr arasında olur. Məsələn: oğlanlar və qızlar, dağlar və dərələr, yazın və oxuyun və s. Tabesizlik əlaqəsi həmcins üzvlər arasında və tabesiz mürəkkəb cümlələrin komponentləri arasında olur. Məsələn: Axşam düşdü və lampalar yandı. Dağlar, dərələr lərzəyə gəldi.

Birinci cümlədə tabesizlik əlaqəsi tabesiz mürəkkəb cümlənin komponentləri arasında, ikinci cümlədə isə həmcins üzvlər (mübtədalar) arasında tabesizlik əlaqəsi mövcuddur.

Dilimizdə bütün cümlə üzvləri həmcins olur. Həmcins xəbər və mübtədalar (Atlar, öküzlər kotana güc verir, gah yeriyir, gah yıxılır, gah durur (Ə.S.), zərfliklər (Su sakit və lal axırdı (S.R.), təyinlər (əlbəttə, bu həqiqi və kamil bir əsər deyildi (Ə.M.), tamamlıqlar (Bir vaxt bunlar xaçı paşalara, əfəndilərə satdılar (M.C.) arasında tabesizlik əlaqəsi vardır. Eyni zamanda həmcins xitablar arasında da tabesizlik əlaqəsi olur (*Qardaşlar, bacılar, bu azadlıq bayrağı altında azad həyata doğru irəli. C.C.*).

Tabesizlik əlaqəsinin xüsusi formal əlaməti yoxdur. Bu əlaqə sadalayıcı intonasiya, tabesizlik bağlayıcıları ilə meydana çıxır.

**2. Tabelilik əlaqəsi**

Azərbaycan dilində tabelilik əlaqəsinin işlənmə dairəsi genişdir. Bu əlaqə söz birləşmələrinin tərəfləri arasında, tabeli mürəkkəb cümlənin baş və budaq cümlələri arasında özünü göstərir. Tabelilik əlaqəsi iki tərəfdən ibarətdir. Bu əlaqədə tərəflərdən biri digərindən asılı olar, biri digərini izah edir, aydınlaşdırır. Digər söz isə müstəqil olaraq, məsələn, *dadlı meyvə, sənin kitabın, evə getmək* və s. birləşmələri bu əsasda yaranmışdır.

Tabelilik əlaqəsi predikativ və qeyri-predikativ birləş-mələrdə özünü göstərir. Bu əlaqələrin aşağıdakı növləri vardır: ***uzlaşma, idarə, yanaşma.***

***a) Uzlaşma əlaqəsi***

Uzlaşma əlaqəsi tabe sözün tabe edici sözə, şəxsə və kəmiyyətə görə uyğunlaşmasına deyilir. Tabelilik əlaqəsinin bu növündə tabe edən tərəf hansı şəxsə

aiddirsə, tabe tərəf də həmin şəxsə məxsus qrammatik əlamətlər qəbul edir, tabe edən tərəfin tək və cəm olması tabe tərəfdə əks olunur. Bu əlaqə həm predikativ əlaqəli birləşmələrin, həm də atributiv əlaqəli birləşmələrin tərəfləri arasında olur. Predikativ əlaqəli birləşmələrdə uzlaşma əlaqəsinin göstəricisi xəbərlik və şəxs şəkilçilərinin vasitəsi ilə formalaşır. Məsələn: *mən həkiməm, biz mühəndisik, biz gedirik, siz gəlirsiniz və s.*

Azərbaycan dilində şəxsə görə uzlaşma daimi xarakter daşıyır və heç vaxt pozulmur: mən yazdım, siz yazdınız, onlar yazırlar (həkimdirlər). Kəmiyyətə görə uzlaşmada isə bir qədər fərqli cəhətlər var. Qeyd edək ki, mübtəda və xəbər arasında, iki və üçüncü növ ismi birləşmələr arasında uzlaşma əlaqəsi olur. Mübtəda və xəbər arasında uzlaşmalarda mübtəda əsas, xəbər isə asılı tərəfdir. Mübtəda hansı şəxsdədirsə, xəbər də həmin şəxs şəkilçisini qəbul edir. Məsələn, *mən işləyirəm, biz işləyirik, onlar işləyirlər.*

Birinci və ikinci şəxslərdə (mən, biz, sən, siz) xəbər mübtəda ilə həmişə şəxsə və kəmiyyətə görə uzlaşır və uzlaşma heç vaxt pozulmur. Üçüncü şəxsdə təkində də uzlaşma pozulmur. Üçüncü şəxsin cəmində xəbər kəmiyyətcə uzlaşa da bilər, uzlaşmaya da bilər. Məsələn: müəllimlər gəldilər də deyilir, müəllimlər gəldi də deyilir.

Tabe edən tərəfin müxtəlif əşyalara aid olması uzlaşmanın nisbətinə təsir edə bilir. Məsələn:

1. Əgər tabe edən tərəf (mübtəda) insanlara aiddirsə tabe tərəf (xəbər) əksər hallarda onunla uzlaşır, bəzən də uzlaşmır. Məsələn: *Adamlar buraya gələndə tələsirdilər. Nümayəndələr qarşılandı.*

2. Tabe edən tərəf heyvan və quş anlayışı ifadə edərsə, mübtəda cəm olsa da, xəbər cəm də ola bilir, tək də. Məsələn: *Atlar daha da coşurdular; Səsimə səs verir quşlar yuvadan* (S.V.) .

3. Mübtəda (tabe edən tərəf) cansız varlıq olarsa, xəbər (tabe tərəf) əksər hallarda onunla bəzən uzlaşmır, bəzən uzlaşır. Məsələn: *Dağlar, dərələr titrədi; Evlər tikildi* və s. Mübtəda şəxsləndirilmiş olarsa (məcazi məna kəsb edərsə), uzlaşa da bilir. Məsələn: *Çiçəklər pıçıldaşırdılar.*

Deməli, uzlaşma əlaqəsi ikinci növ (dağ qartalı, vətən həsrəti, yazı taxtası), üçüncü növ (mənim vətənim, oxumağın faydası, şagirdlərin çoxu, ağacın kölgəsi) ismi birləşmələr və mübtəda ilə xəbər arasında olur.

Uzlaşma əlaqəsinin qrammatik göstəricisi mənsubiyyət, xəbərlik və şəxs şəkilçilərindən ibarətdir.

### *b) İdarə əlaqəsi*

İdarə əlaqəsi, əsasən, obyekt və relyativ əlaqəli birləşmələrin tərəfləri arasında olur. İdarə əlaqəsinin əsas göstəricisi budur ki, əsas sözün tələbi ilə asılı söz ismin bu və ya digər halına düşür. Deməli, idarə əlaqəsi ismin halları ilə bağlıdır və qrammatik

göstəricisi ismin hallarıdır (adlıq haldan başqa). İdarə əlaqəsində hallanan söz asılı tərəf olub müxtəlif nitq hissələri ilə ifadə oluna bilər [7. 315-316].

a) İsimlərin idarə olunması: qapını açmaq, evə getmək, şəhərdə yaşamaq.

b) Əvəzliklərin idarə olunması: məni dinləmək, sənə baxmaq, bizdən getmək.

c) Sifətlərin idarə olunması: yaxşını pisdən ayırmaq, qırmızını xoşlamaq.

d) Sayların idarə olunması: beşdən üçü çıxmaq, azı aparmaq, çoxu gətirəndə.

e) Məsdərlərin idarə olunması: yazmağı öyrənmək, oxumaqdan gəlmək.

ə) Feili sifətlərin idarə olunması: danışanı dinləmək, oxuyanlara qulaq asmaq.

j) Zərflərin idarə olunması: geriyə dönmək, irəliyə baxmaq.

İdarə əlaqəsində əsas tərəf, əsasən, feillərdən ibarət olur. Əsas tərəfin ifadəsi baxımından idarə əlaqəsinin müxtəlif növlərinə rast gəlirik.

- feillərlə idarə: kitaba baxmaq, kitabı almaq, evdən gəlir və s.
- isimlərlə idarə: Qarabağın şikəstəsi, vətənin döyüşçüləri, onun kitabı.
- sifətlərlə idarə: kitabın maraqlısı, dünyada məşhur, gözəllər gözəli.
- saylarla idarə: kitabların çoxu, beşdə dördünü, tələbələrin biri.
- zərflərlə idarə: evin yuxarısı, kəndin aşağısı, dərənin yuxarısı.
- qoşmalarla idarə: mənə görə, sənin üçün, ondan başqa.
- əvəzliklərlə idarə: uşaqların hamısı.

### *c) Yanaşma əlaqəsi*

Asılı tərəfin heç bir qrammatik şəkilçi qəbul etmədən əsas tərəfə yanaşıb, mənaca ona bağlanmasına yanaşma deyilir. Yanaşma əlaqəsinin yaranması üçün heç bir formal qrammatik vasitə iştirak etmir. Məsələn: yaxşı kitab, beş dəftər, gözəl insan, tez getmək, asta qaçmaq və s. Demək, tabelilik əlaqəsində iki söz arasında uzlaşma və idarə yoxdursa bu sözlərin əlaqəsi yanaşmadır. Yanaşma əlaqəsində sözlərin yanaşı işlənməsi əsas götürülür[7. 298]

Yanaşma əlaqəsi müxtəlif nitq hissələrindən olan sözlər arasında olur. Bu baxımdan yanaşma əlaqəsini müxtəlif tiplərinə rast gəlirik.

1) İsmin ismə yanaşması: dəmir sətirlərim, odlu sözlərim (S.R.). Uçun qızıl şahinlərim (S.V.)

2) Sifətin ismə yanaşması: böyük şəhər, tənbəl uşaq, gözəl hava, parlaq ulduz, yamyaşıl çəmən və s.

3) Sayın ismə yanaşması: beş kitab, birinci sinif, xeyli adam. Yanaşma əlaqəsində işlənən saylarla isimlər arasında numerativ sözlər də işlənə bilər: beş cüt ayaqqabı, üç dənə kitab, beş kisə un, bir baş kələm və s.

4) Əvəzliyin ismə yanaşması: işarə və təyini əvəzliklərlə yanaşma əlaqəsi daha çox yaranır: bu kitab, həmin kitab, necə səhər və s.

5) Feili sifətin ismə yanaşması: düşünən beyinlər, döyünən ürək, yazar şairlər və s.

6) Zərfin ismə yanaşması: aşağı düşdü, yuxarı qalxdı, içəri girdi və s.

7) Feili bağlamalarla əsas feillər arasında, o cümlədən qoşmalı sözlər arasında yanaşma əlaqəsi olur: durub baxmaq, quş kimi uçmaq, yay kimi dartınmaq və s.

**2. Söz birləşmələri və sintaktik əlaqələrin tədqiqi haqqında**

Hər hansı bir dilin sintaksisində sözləri birləşməsi qaydalarından, söz birləşmələri, cümlə və cümlə üzvlərindən bəhs edir. Sözlərin bir- biri ilə əlaqələnməsi nəticəsində söz birləşmələri və cümlələr əmələ gəlir. Bunun nəticəsində də insan fikirləri maddi dil şəklinə düşür[7. 279]. Doğrudan da, belədir. Bir- biri ilə əlaqəsi olmayan minlərlə söz və ya söz birləşməsi sadalasan da, müəyyan bir fikir ifadə edilməyəcək. Çünki burada nə tema var, nə də rema. Çünki sözlər və söz birləşmələri arasında yanaşma, uzlaşma, idarə əlaqələri yoxdur. Odurki sintaksisin əsas tətbiq obyekti söz birləşmələri və cümlənin tərkibini, aktual üzvlənməni və mətn dilçiliyini öyrənməkdir.

Söz birləşmələri problemi qədim yunan dilçiliyində, daha sonra zaman-zaman rus dilçiliyində öyrənilmiş, geniş tətqiqatlar aparılmışdır. Bu sahə ilə məşğul olan dilçilərdən F. Fortunatov, A. Peskovski, A. Şaxmatov, A. Potebnya, İ. Ubyatova və digərlərini göstərmək olar. Türkoloji dilçilikdə M. Dimitriyev, M. Kazım bəy, A. Kononov, N. Başkakov, S. Meyzel, M. Axundov, L. Budaqov, M. Vəzirov, M, Hüseynzadə, Y. Seyidov, M. Şirəliyev, N. Məmmədov, Ə. Abdullayev, A. Həsənov, B. Xəlilov, Q. Kazımov və digərləri bütövlükdə sintaksisə aid elmi araşdırmaları, dərslik və monoqrafiyalar yazmışlar.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan dilçiliyi müntəxabatı, III cild, Bakı: 2013, 321 s.
2. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri məsələləri. Bakı: 1998. 350 s.
3. Abdullayev Ə., Seyidov Y., Həsənov H. Muasir Azərbaycan dilinin sintaksisi. Bakı: Şərq-Qərb, 2007, 320 s.
4. Ədəbiyyat və dil institutunun əsərləri, VI cild. Bakı:1964., 191 s.
5. Xəlilov B. Azərbaycan dilinin sintaksisi. Bakı: Adiloğlu, 2017, 428 s.
6. Kazımov Q. Muasir Azərbaycan dili. Sintaksis. Bakı, "Təhsil", 2007, 496 s.
7. Məmmədov N. Azərbaycan dilçiliyinin nəzəri əsasları. Bakı: Maarif, 1971., 305 s.
8. Mirzəyev H. Azərbaycan dilində feil. Bakı: Elm, 2006, 543 s.
9. Seyidov Y. Azərbaycan dilində söz birləşmələri. Bakı: BDU nəşriyyatı 1992, 408 s.

**Xülasə**

**Azərbaycan dilində söz birləşmələri, sintaktik əlaqələr və onların tədqiqi**

**Fil.f.d. Bayramova Arzu Astan**

**Açar sözlər: substantivləşmə, idarə, yanaşma, karlaşma, qrammatika**

Beləliklə, söz birləşmələri qrammatik əlamətlərinə görə bir-birindən fərqləndirilir. Bir qrup dilçilər ismi birləşmələri, "təyini söz birləşmələri" adlandırırlar, ona görəki birləşmənin birinci tərəfindəki söz ikinci tərəfi daxilən təyin edir. Digər qrup dilçilər bu birləşmələri "ismi birləşmələr" adlandırmasının səbəbi isə

əsas aparıcı sözün yəni tabe edən sözün mövqeyidir. Burada tabe edən söz (isim) nisbətən müstəqil mövqe tutur.

Feli sifət və məsdər feilin bir sıra xüsusiyyətlərini saxlamaqla həm də substantivləşərkən hal və mənsubiyyət kateqoriyasının şəkilçilərini qəbul edir. Məsələn: onun dünən dediyi (söz), kobud danışmağın nəticəsi və s. Göründüyü kimi feli sifət və məsdər tərkibləri III növ ismi birləşmələrin tərəfi kimi də işlənir, lakin feli bağlama tərkibləri substantivləşə bilmir.

Sintaksis əlaqələrə gəldikdə isə tarixi, ədəbi-bədii nümunələrdə işlənən sözbirləşmələri cümlədəki sözlər arasında olan əlaqələr muasir dildə işlənən həm tabelilik həm də tabesizlik əlaqələri ilə o qədər fərqlənmir.

**Summary**

**PhD in Philology Bayramova Arzu Astan**

**Word combinations, syntactic relations and their study in the Azerbaijani language**

**Keywords:** substantivization, management, approach, deafness, grammar

Thus, word combinations are distinguished from each other according to their grammatical features. A group of linguists call noun phrases "defining phrases" because the word on the first side of the phrase internally defines the second part. The reason why other groups of linguists call these combinations "noun combinations" is the position of the main leading word, i.e. the subordinate word. Here the subordinating word (noun) takes a relatively independent position.

The verb retains several features of the adjective and infinitive verb, but also receives the suffixes of the case and affiliation category when becoming a substantive. For example: what he said yesterday, the result of talking nonsense, etc. As it can be seen, the adjective and infinitive verbs are also used as part of noun compounds of the III type, but the verb clauses cannot be substantiveized.

As for the syntactic relationships, the word combinations used in historical, literary and artistic examples, the relationships between the words in the sentence are not so different from the relationships of both subordination and independence used in the modern language.

**РЕЗЮМЕ**

**Д.ф. по фил. Байрамова Арзу Астан**

**Словосочетания, синтаксические отношения и их изучение в азербайджанском языке**

**Ключевые слова: субстантивация, управление, подход, глухота, грамматика.**

Таким образом, словосочетания отличаются друг от друга по своим грамматическим признакам. Группа лингвистов называет именные фразы

«определяющими фразами», потому что слово в первой части фразы внутренне определяет вторую часть. Причиной, по которой другие группы лингвистов называют эти сочетания «именными сочетаниями», является положение главного ведущего слова, т. е. подчинённого слова. Здесь подчинительное слово (существительное) занимает относительно самостоятельное положение.

Глагол сохраняет ряд особенностей прилагательного и инфинитива глагола, но также получает суффиксы падежа и категории принадлежности, становясь существительным. Например: то, что он сказал вчера, результат несения ерунды и т. д. Как видно, прилагательные и инфинитивные глаголы также употребляются в составе именных соединений III типа, но глагольные придаточные не могут быть субстантивированными.

Что касается синтаксических связей, словосочетаний, употребляемых в исторических, литературных и художественных примерах, то отношения между словами в предложении не так уж отличаются от отношений как подчинения, так и самостоятельности, используемых в современном языке.

**Rəyçi: Dos. İbayev Nemet**